BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# KƏŞMİR PROBLEMİ VƏ ONUN HƏLLİ YOLLARI

**A.H. MƏMMƏDOVA**
***AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
**memmedovaaygun2010@mail.ru.**

*Təqdim olunan məqalədə "Kəşmir problemi və onun həlli yolları" təhlil olunub. Müəllif məqalədə Pakistan və Hindistanda gedən siyasi prosesləri, Kəşmir münaqişəsinin tarixini şərh edərək, aparıcı dövlətlərin münaqişəyə olan münasibətlərini əks etdirib. Məqalədə həmçinin yarım əsrdən çox tarixə malik olan Kəşmir probleminin nə zaman və necə nizamlanmasından bəhs olunur. Pakistan və Hindistan probleminin həlli üçün adı çəkilən hər iki dövlət müəyyən kompromisslərə getməlidir.*

Zaman keçdikcə beynəlxalq aləmdə Asiya özünə daha çox diqqət cəlb etməyə başladı. Çünki Asiya dövlətlərindəki problemlər, konfliktlər lokallıqdan çıxıb, qloballığa doğru sürət aldı. Bu regionun ölkələrinin qədim tarixi, adətləri, eyni zamanda özlərinin milli maraqları, problemlərin həllinə və beynəlxalq siyasətlə öz baxışları var.

XIX əsrin dördüncü onilliyinin sonlarında iki dövlət arasında ərazi bölgüsü ilə əlaqədar olaraq yeni münaqişə ocağı yarandı. Sərhədlə əlaqədar yaranan münaqişə kontingentdəki təhlükəsizliyə və stabilliyin pozulmasına səbəb oldu. Nəticə etibarilə iki dövlətin beynəlxalq əlaqələrində soyuqluq baş verdi. Bu iki qonşu dövlətin qarşıdurmasına səbəb Kəşmir və Cammu ştatları oldu.

Kəşmir və Cammu münaqişəsi 1947-ci ildə Hindistan koloniyasının ərazisində yeni dövlətin yaranması zamanı təşəkkül tapdı. Hindistanın ərazisi hesabına yaranan dövlət-müsəlman dövləti olan Pakistan oldu.

Hindistan ərazisindəki knyazlıqlar bu iki dövlətdən birinin ərazisinə daxil olmalıydı. Bu zaman Hindistan subkontingentində 500-dən çox knyazlıq var idi. Coğrafi vəziyyət, əhalinin tərkibi və istəyi, din faktoru nəzərə alınmaqla knyazlıqlar 2 dövlətdən birinin ərazisinə daxil olmalı idi. Pakistan əsasən müsəlman dövləti kimi yaradıldığı üçün müsəlmanların çoxluq təşkil etdiyi knyazlıqlar bu dövlətin ərazisinə qatılmağa üstünlük verirdilər. Bu dominionlara qoşulmayanlara Britaniyanın vassalı olmaq hüququ qazanırdılar. Kəşmirin *maxaracın* heç bir dövlətə birləşməməsi əhalinin narazılığına səbəb oldu. Maxaraca yalnız Hindistanın tərkibinə daxil olacağı təqdirdə ona kömək olunacağı bildirildi. Xalqın iradəsinin əksinə gedildiyi açıq-aydın diqqəti cəlb etdiyinin şahidi olarıq.

1947-ci ilin oktyabrın 21-də puştin tayfalarının qoşunlarının və onların ardınca "pakistanlı könüllülər"in hərbi yolla Kəşmir məsələsini həll etmək üçün əraziyə daxil olmaları vəziyyəti qəlizləşdirmişdi. "24 oktyabrda ərazini zəbt edəcək suveren Azad Kəşmirin yarandığını və bütün knyazlığın Pakistanın ərа-

zisinə daxil olduğunu elan etdilər. Bundan hiddətlənən Hari Singh 1947-ci ilin oktyabrında Srinaqardan Cammuya qaçaraq, Hindistanın general qubernatoru lord Mauntbettene məktub yazaraq ərazinin Hindistana birləşdirilməsini və "qayda-qanun" yaratmaq məqsədilə qoşun göndərilməsini xahiş etmişdi.

1947-ci il 27 oktyabrda məktuba cavabında lord Kəşmirin müvəqqəti olaraq Hindistana birləşdirildiyini yazsa da, sonradan bu ştatın müqəddəratının yalnız xalqın istəyi ilə həll ediləcəyini də qeyd etmişdir (1,159). Çünki o zaman Kəşmirin əhalisinin 77%-i müsəlman idi (4,1) və bu zaman xalqın iradəsi nəzərə alınmadı (bəzi mənbələr 77%-dən çox, bəziləri 90 % müsəlman əhalisini olduğunu yazır).

Nəticə 1947/48-ci il birinci Hindistan-Pakistan müharibəsi oldu. BMT müvəqqəti Nəzarət xəttinin yaranmasını təmin etdi. Kəşmir faktiki olaraq 3 hissəyə bölündü: Azad Kəşmir, Hindistanın və Pakistanın nəzarətinə daxil olan ərazilər.

1965-ci il Hindistan və Pakistan dövlətləri arasında 2-ci silahlı toqquşma baş verdi. 23 sentyabr 1965-ci ildə Sovet İttifaqı və digər dövlətlərin vasitəçiliyi ilə silahlı münaqişəyə son qoydu.

1971-ci ildə iki dövlət arasında üçüncü müharibə başladı. Bu zaman Hindistanın "kömək"liyi ilə Şərqi Pakistan müstəqillik əldə etdi. Nəticə etibarilə Cənubi Asiyada yeni müstəqil dövlət yarandı (6,166-168). Pakistanın 2 hissəyə ayrılması böhranlı vəziyyətin başlanmasına səbəb oldu. 1977-ci ilin sonlarında ölkədə sünni-şiə qarşıdurması kəskinləşdi. Bu zaman ölkəyə general Məhəmməd Ziya-ül-Xakimin rəhbərlik edirdi. Təbii ki, bu da münaqişəyə təsirsiz ötüşmədi. Yəni dövlətlər silahlamaya çox böyük önəm verirlər. Hind okeanı zonasında 2 nəhəng atom dövlətinin yaranması və onlar arasındakı konflikt ərazinin təhlükəsizlik problemini daha da artırdı.

1990-cı ilin sonlarında iki dövlət bir-birinin ardınca nüvə silahını sınaqdan keçirməklə nüvə dövlətinə çevrildi.

Onu da qeyd etməliyik ki, bu dövrlərdə Pakistanın Əfqanıstanla sərhəd əraziləri dünyanın ən iri narkotik istehsal edən ərazilərinə çevrilməyə başladı. 1990-cı ilin fevralında BMT Baş Məclisinin Nyu-Yorkda narkotika alveriylə bağlı iclasında Əfqanıstanın XİN müavini nümayəndə heyətinin başçısı Davud Kavian da qeyd edib: "1989-cu ildə Əfqanıstan tərəfindən 716 kq. heroin və 1560 kq. həşiş müsadirə edilib" (8, 31). Yenə həmin illərin məlumatlarında qeyd olunur ki, Pakistanla sərhəd Kəşmiri və Cammu ştatlarında narkotikadan istifadə rekord həddə çatıb.

2001-ci il 11 sentyabr hadisələri 2 dövlətin münasibətlərinə və xarici siyasətinə təsirsiz ötüşmədi. 2005-ci ildə Dehli prezidenti Corc Buşla (kiçik) "nüvə müqaviləsi" bağladı (7, 93). Bu andan etibarən dünya dövlətləri Hindistanın inkişafına diqqət yetirməyə başladı. Bunu həmçinin "Soyuq müharibələr"dən sonra Hindistanın xarici siyasətindəki dəyişikliklərin göstəricisi kimi də qiymətləndirmək olar. Bu da, öz növbəsində, XXI əsrin ən əsas problemlərindən olan Asiyada sabitliyin təminatçısı ola bilər.

Bu zaman ərzində Hindistan və Pakistan dövlətlərinin beynəlxalq əlaqələri dəyişən xətt üzrə inkişaf edir. Bu gün dövlətlərin münasibətlərində istiləşmə hiss olunsa da, münaqişənin müsbət həllindən danışmaq hələ çox tezdir. Lakin

yarım əsrdən çox tarixə malik olan Kəşmir və Cammu problemi haqqında daha dəqiq onun nuzamlanması haqqında bəzi fikirləri qeyd etmək olar.

ABŞ-ın Cənubi Asiya üzrə müşaviri Robin Linn Raffilinin “ABŞ bütün Kəşmirə mübahisəli ərazi kimi baxır və onun 1947-ci ildə Hindistana birləşməsini tanımır” – söyləməsi Hindistanda böyük əks-sədaya səbəb olmuşdu (3,21).

Buna cavab olaraq Hindistanın Xarici İşlər Nazirliyi: “heç kimin Kəşmirin statusunu zərbə altında qoymağa ixtiyarı yoxdur” söyləməsi ABŞ –lıları öz fikirlərindən döndərə bilmədi. 1993-cü ildə yenidən Hindistana səfər edən ABŞ-ın Cənubi Asiya üzrə dövlət katibi Con Mellot da yenidən “Biz Kəşmirə mübahisəli ərazi kimi baxırıq” (3, 21) deməsi təbii ki Pakistana bir “kömək” idi. Və eyni zamanda Hindistan-Pakistan münasibətlərində 3-cü tərəfin – Kəşmir əhalisinin də bu proseslərdə iştirakını qeyd etmək istəyir. Bunu üçün də yerli əhali ilə söhbətlərin aparılması zəruridir.

Kəşmir və Cammu ştatlarında bu gün də terror aktları davam etməkdədir. Həmçinin belə bir məlumatlar da daxil olmaqdadır ki, bu hərəkatlarda Əfqanıstandan qaçmış “Taliban” hərəkatının və “Əl-Qaidə” təşkilatının üzvləridir. Bu fakt Kəşmir problemini daha da dərinləşdirir və Hindistan və Pakistan münasibətlərinə mənfi təsir göstərir. Belə qənaətə gəlmək olar ki, Hindistan və Pakistanın məsələni tənzimləmək üçün fikirləri tam fərqlidir: Hindistan tərəfi öz fikirlərində qətidir: “Kəşmir Hindistanın ayrılmaz hissəsi” olduğunu dəfələrlə bəyan edib.

Pakistana gəlincə o Kəşmiri həll olunmamış problem kimi qəbul edir və tələb edir ki, Kəşmir xalqına öz müqəddəratını, hüquqlarını referendumla həll etməyə şərait yaradılsın. BMT Təhlükəsizlik Şurasının 21 aprel 1948-ci il və 5 yanvar 1949-cu il rezolyusiyalarına əsasən beynəlxalq aləmin nəzarətilə keçirilsin (6, 2).

Kəşmirli siyasətçilər eyni zamanda xarici siyasətçilər çox böyük təəssüf hissi ilə bildirirlər ki, problemin həllindən danışarkən ərazinin Pakistana və ya Hindistana birləşdirilməsi deyil, Kəşmir xalqının taleyi əsas götürülməlidir. Onlara öz müqəddəratlarını həll etməyə imkan yaradılmalıdır. Pakistan və Hindistan hər ikisi eyni zamanda kəşmirlilərin maraqlarını nəzərə alsınlar və ona hörmətlə yanaşsınlar.

Bu da şübhəsizdir ki, Pakistan-Hindistan münasibətlərinin normallaşması, vətəndaş cəmiyyətinin formalaşması probleminin həllinə öz töhfəsini verə bilər.

Kəşmir xalqına gəlincə onlar da özlüklərində 3 hissəyə – Pakistanyönlü, Hindistanyönlü və müstəqil kəşmirlilərə bölünüblər. Problemin dərinliyi bəlkə də elə buradadır. Referenduma isə Kəşmirdə Hindistanın və Pakistanın qanunları nəzərə alınmaqla, ortaq bir məxrəcdə keçirilməlidir.

Bir çox müəlliflər belə hesab edirlər ki, BMT-nin 1948/49 rezolyusiyası artıq köhnəlib. Yəni Kəşmir nə Pakistanın, nə də Hindistanın ərazisinə verilməməlidir (6, 6-7). Bunun üçün yeni layihələr işlənib hazırlanmalıdır. Problemin hazırlanmasına daha fərqli yanaşanlar da var.

1. Nəzarət xətti əsasında Kəşmirin parçalanmasını rəsmiləşdirmək və bununla da problemi həll etmək. Cammu və Kəşmir hökumətlərinin sədri Faruq Abdulla da bu variantı dəstəkləyənlər sırasındadır.

Bir sıra beynəlxalq ekspertlər tərəfindən irəli sürülüb özündə BMT-nin yeni qətnaməsi əsasında müstəqil Kəşmir dövlətinin yaradılmasını ehtiva edir.

Problemin həlli ilə bağlı ən son variantlardan biri Pakistan Prezidenti P.Müşərrəf tərəfindən səslənmişdir. 2003-cü ilin payızında televiziya ilə çıxışlarının birində P.Müşərrəf Kəşmir bölgəsinin Pakistan və Hindistanın birgə idarəsinə verilməsi və bununla da məsələnin öz həllini tapması ideyası ilə çıxış etmişdir. Buna cavab olaraq hind rəhbərliyi bəyan etdi ki, bu cür təkliflər KİV vasitəsilə deyil, siyasi kanallarla qarşı tərəfin diqqətinə çatdırılmalı və siyasi formulə olunmalıdır.

Haqqında danışacağımız digər variant isə Cammu və Kəşmir Azadlıq Cəbhəsinin liderlərindən olan Əmənulla xanın adı ilə bağlıdır. O, təklif edir ki, Kəşmir üzrə Beynəlxalq Komitə yaradılsın, böyük dövlətlərdən Almaniya və Yaponiya, həmçinin İslam Konfransı Təşkilatı (İKT), Bloklara Qoşulmama Hərəkatının bir neçə üzvü və BMT TŞ-nin himayəsi altında bu Komitə bütün Kəşmir torpaqlarını birləşdirərək 15 illik sınaq müddəti üçün federal sistemli dünyəvi Kəşmir dövləti yaratsın, 15 illik müddət bitdikdən sonra isə BMT-nin nəzarəti altında Kəşmirdə dövlətçiliklə bağlı referendum keçirilsin (2, 87-88).

Təbii ki, təkliflər müxtəlifdir. Amma hər bir halda kəşmirlilərin hüquqlarının pozulması əsas məsələ olmalıdır.

## ƏDƏBİYYAT


1. Məmmədova A.H. Kəşmir probleminin yaranma səbəbləri haqqında / AMEA Beynəlxalq münasibətlərin qlobal problemləri. Məqalələr toplusu. Bakı, 2006, s. 155-170.
2. İsabəyli A.Q. Pakistan müasir beynəlxalq münasibətlər sistemində. Bakı: BDU, 2005, 152.
3. Борис Зайцев. США и «Третий вариант» решения проблемы Кашмира. М.: Компас. 1993 №186.
4. Ланда Р.Г. Политический ислам: предворительные итоги. Гл.III, §5, М., 2005, с. 286 (http://www.i-r-p.|page|stream-library|index-2109. html).
5. Москаленко В. 14.12.2001. В Кашмире по-прежнему неспокойно. «Независимая газета», 2001,14 декабря
6. Петр Топычканов. Пакистан: Война без победителей // Россия и мусульманский мир. М., 2006, №10, 168-175
7. Си Раджа Мохан. Индия и политическое равновесие // Россия и мусульманский мир. М., №11, 93-103
8. Семененко Н. СААРК: Взгляд из Исламабада. М.: Компас. №49, 34-37


## КАШМИРСКАЯ ПРОБЛЕМА И ЕЕ РЕШЕНИЕ


**А.Г.МАМЕДОВА**


## РЕЗЮМЕ


В этой статье автор пересматривает «Кашмирский конфликт и его решение».

За более чем 60 лет индийско-пакистанского конфликта, возникшего из-за кашмирской проблемы, между Дели и Исламабадом произошло несколько вооруженных конфликтов.

Признание линии прекращение огня в качестве международной границы рассматривается многими представителями кашмирской диаспоры как неприемлемое для народов Индии, так и Пакистана.

## KASHMIR PROBLEM AND WAYS OF ITS SOLUTION

**A.H.MAMMADOVA**

**SUMMARY**

The article deals with Kashmir problem and analyzes ways of its solution. The author analyzes the political processes in Pakistan and India, and comments on the history of the Kashmir conflict. The author arrives at such a conclusion that Pakistan and India must come to the compromise to reach the solution of the problem.